**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 376/3** **02 may 2025-ci il**

**“Auditor adı almaq üçün Auditorlar Palatasının İmtahan Komissiyası haqqında” Əsasnamənin təkmilləşdirilməsi barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə və digər qanunvericilik aktlarına uyğun olaraq, auditor adı almaq üçün imtahanların beynəlxalq tələblər səviyyəsində və tam obyektivlik şəraitində keçirilməsini təmin etmək, imtahanlarda iştirak edən şəxslərin bilik səviyyəsini düzgün qiymətləndirmək məqsədilə, Kadr hazırlığı idarəsi tərəfindən “Auditor adı almaq üçün Auditorlar Palatasının İmtahan Komissiyası haqqında” Əsasnamənin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor adı almaq üçün Auditorlar Palatasının İmtahan Komissiyası haqqında” Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı idarəsinə (E.Behbudova) və İmtahan Komissiyasına tapşırılsın ki, auditor adı almaq üçün növbəti imtahanlarda öz işlərini bu Əsasnaməyə uyğun həyata keçirsinlər.
3. Auditorlar Palatası Şurasının “Auditor adı almaq üçün Auditorlar Palatasının İmtahan Komissiyası haqqında” Əsasnamənin təkmilləşdirilməsi barədə” 2011-ci il 30 iyun tarixli 221/7 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
4. Bu Qərarın və “Auditor adı almaq üçün Auditorlar Palatasının İmtahan Komissiyası haqqında” Əsasnamənin mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 376/4** **02 may 2025-ci il**

## "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları"nın təkmilləşdirilməsi barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və digər qanunvericilik aktlarına uyğun olaraq, auditor adı almaq üçün imtahanların beynəlxalq tələblər səviyyəsində və tam obyektivlik şəraitində keçirilməsini təmin etmək məqsədilə, Kadr hazırlığı idarəsi tərəfindən "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları"nın təkmilləşdirilmiş layihəsini müzakirə edərək Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı idarəsi (E.Behbudova) və İmtahan Komissiyasına tapşırılsın ki, "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları"ndan irəli gələn tədbirlərin yüksək səviyyədə həyata keçirilməsini təmin etsinlər.
3. Auditorlar Palatası Şurasının "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları" barədə 2011-ci il 30 iyun tarixli 221/6 saylı qərarı qüvvədən düşmüş hesab edilsin.
4. Bu Qərarın və "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları" mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**